**Günel HACIYEVA**
*AMEAM.Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı*

# AZƏRBAYCAN MEMARLARINA HƏSR OLUNMUŞ ŞƏXSİ BİBLİOQRAFİK GÖSTƏRİCİLƏR

***Açar sözlər:*** *memarlıq fəaliyyəti, memar, kitabxana, biblioqrafikresurslar, sənəd-informasiya təminatı*

***Ключевые слова:*** *архитектурной деятельности, архитектор, библиотека, библиографических ресурсов, документально информационная обеспечения*

***Keywords:****architectural activity, architect, library, bibliographic resources, documents- information software*

*Məqalədə memarlığa dair tədqiqatlar, monoqrafiyalar, şəxsi biblioqrafik göstəricilər informasiya resursları kimi analiz edilmişdir.Məqalənin əsashədəfi adı çəkilən bu biblioqrafik mənbələrin informasiya resursu kimi təqdim etməkdir.*

Giriş.Azərbaycan xalqının dərin va müxtəlif tarixi köklərə malik olan mədəniyyəti ümumdünya mədəniyyətinin mürəkkəb və ayrılmaz tərkib hissəsidir. Bu köklərin öyrənilməsi və sistemləşdirilməsində azarbaycanlı alimlərin əvəzsiz xidmətləri olmuşdur. Onların əsərləri Azərbaycan memarlıq irsinin elmi cəhətdən əsassız, ayrı-ayrı xalqların mədəniyyətlərinin özünəməxsusluğunu inkar edən, zaman və məkan xaricində olan, eləcə da mahiyyətinə görə qeyri-müəyyən xarakterə malik, elmə zidd konsepsiyalardan ayrılmasına səbəb olmuşdur.

Azərbaycanda memarlığın nəzəri problemlərinə həsr olunmuş kitablar memarlığımızın sənəd kütləsində çoxluq təşkil edir. Bunlara əsasən müvafiq dövrün memarlığının inkişafına kömək göstərmək məqsədilə dərin elmi-tədqiqat xarakterli tənqidi əsərlər, müasir memarlığın əsas yaradıcılıq məsələlərini təhlil edən, ətraflı şəkildə işıqlandıran, memarlıq yaradıcılığında ictimai məzmun, forma, sənətkarlıq, üslub məsələləri və s. problemləri əks etdirən nəşrlər daxildir.

Azərbaycan memarlığının sənəd və informasiya məkanında memarlığın tarixi inkişaf mərhələlərində mühüm yaradıcılıq məsələləri ilə əlaqədar onlarca belə əsərlər meydana çıxmışdır: görkəmli memarlar və gənc elmi tədqiqatçılar tərəfindən yazılmış bu zəngin nəzəri irs Azərbaycan memarlığının inkişafında yaxından iştirak etmişdir.

Bu tip materiallarda əsərin həsr olunduğu şəxsiyyətin memarlıq tarixindəki mövqeyi, rolu və sənətkarlıq xüsusiyyətlərindən asılı olaraq onun dövrü, həyat və yaradıcılığı, elmi irsi, yaradıcılığının inkişaf mərhələlərinin

əsas istiqamətləri təhlil olunur, onun yaradıcılığının mütərəqqi ənənələrinə əsaslanan bu günkü memarlığın inkişafı üçün nəticələr çıxarılır.

**Məsələnin qoyuluşu**

Azərbaycan memarlığının ayrı-ayrı nümayəndələrinə həsr olunmuş şəxsi biblioqrafik göstəriciləri də memarlıq sahəsi üzrə mühüm kitabxana-informasiya resursu hesab etmək olar. Belə göstəricilərdən biri AMEA-nın müxbir üzvü, memarlıq doktoru, professor, Tarix və Mədəniyyət Abidələrinin Bərpası Elmi-tədqiqat Layihəsi İnstitutunun direktoru, professor Cəfər Qiyasiyə həsr olunmuşdur (6, s.1). Biblioqrafik göstəricinin tərtibçisi İsmət Səfərov, redaktoru filologiya üzrə elmlər doktoru Aybəniz Əliyeva-Kəngərlidir. Alimin həyat vəyaradıcılığı haqqında qısa oçerkin müəllifi memarlıq doktoru, Arif Mehdiyev və memarlıq üzrə fəlsəfə doktoru Rizvan Bayramovdur.

Biblioqrafik göstəricidə materiallar bir neçə bölmədə qruplaşdırılmışdır. Birinci bölmə "Həyat və elmi fəaliyyətinin əsas tarixləri" adlanır (6, s.3). Bölmədənöyrənirikki, Cəfər Qiyasi 24 mart 1942-ci ildə Ərdəbil şəhərinin Piləçay kəndində anadan olmuşdur. 1946-cı ildə ailəsi ilə birgə Şimali Azərbaycana köçmüşdür. Bölmə vasitəsi ilə professor C.Qiyasinin həyat yolu haqqında mükəmməl informasiya almaq olar.

İkinci bölmədə "CəfərƏli oğlu Qiyasi" adlanan oçerk öz yerini tutur (6, s.8). Azərbaycan, rus və ingilis dillərində yazılmış oçerkdən məlum olur ki, Cəfər Qiyasi respublikamızda öz fəaliyyətində praktiki yaradıcılıqla elmi-tədqiqatı yüksək peşəkarlıqla birləşdirən azsaylı memarlarımızdandır. O, bu gün də abidələrin bərpası sahəsində çalışmalarını davam etdirir, zəngin memarlıq irsimizin yeni qatları və problemlərinin açıqlanması üçün daha sanballı elmi araşdırmalar aparır, memarlıq tarixi və nəzəriyyəsindən dərs deyir, gənc tədqiqatçılar yetişdirir.

Keçən əsrin 60-cı iilərindən yaradıcılığa başlayan Cəfər Qiyasi 7 kitabın, 180-dən çox elmi məqalənin, onlarla layihənin müəllifidir. "Təbriz memarlıq məktəbi" mövzusu ilə elm aləminə nüfuz etməyə başlayan C.Qiyasi Güney Azərbaycanın demək olar ki, bütün orta əsr memarlıq təcrübəsini dərin və əhəmiyyətli araşdırmışdır.

C.Qiyasinin 1985-ci ildə çap olunmuş "Yaxın-Uzaq ellərdə"(Orta əsr Azərbaycan memarlığının beynəlxalq əlaqələri haqqında) kitabı Azərbaycan memarlığının dəyərli hadisəsi sayıla bilər. Onun 1994-cü ildə Moskvada çapdan çıxmış "Azərbaycan. Qalalar, qəsrlər" çoxüllüstrasıyalı kitabı albom şəklindədir. Kitabın əsas mətni ingiliscə hazırlanmış, Azərbaycan və rus dillərində annotasiya verilmişdir.

Türkiyə ilə yaranmış əlaqələrin ilk nəticəsi kimi 1996-cı ildə Ankarada nəşr edilmiş "Erməni kültür terroru" kitabını göstərmək olar. Kitabın "Azərbaycan türk kültür mirasına qarşı erməni terroru" bölümünü Cəfər Qiyasi yazmışdır.



Cəfər Qiyasi bır sıra gözəl layihələrin müəllifidir. Onun İqdır şəhərində ucaltdığı "Soyqırımın anımı və muzeyi" öz möhtəşəmliyi ilə seçilir.

Biblioqrafik göstəricinin üçüncü bölməsi "Əsərlərinin biblioqrafiyası" adlanır (6, s.53). Bölmədən öyrənirik ki, C.Qiyasinin ilk əsəri "Qalanın sirri açılır" adlı məqalə "Azərbaycan gəncləri" qəzetində 1 noyabr, 1964-cü ildə çap olunmuşdur. Bölmədə memarın çap olunmuş 226 əsəri haqqında biblioqrafik informasiya verilir.

Dördüncü bölmə "Redaktə etdiyi kitablar" adlanır (6, s.80) və bu bölmədə onun redaktoru olduğu 3 kitab haqqında biblioqrafik informasiya verilir.

"Dissertasiyalara elmi rəhbərlik" adlanan beşinci bölmədə görkəmli memarın rəhbərlik etdiyi ikidissertasiya işi haqqında biblioqrafik informasiya verilir (6, s.81).

"Həyatı, yaradıcılığı və əsərləri haqqında ədəbiyyat" adlanan altıncı bölmədəgörkəmli memar haqqında yazılmış 81 mənbə haqqında biblioqrafik informasiya verilir (6, s.82). Məlum olur ki, C.Qiyasi haqqında ilk yazılmış məqalə "Fantaziyaya mükafat" adlanır, məqalənin müəllifi İ.Nərimanoğludur. Məqalə "Ədəbiyyat və incəsənət" qəzetinin 1968-ci il 8 dekabr nömrəsində dərc olunmuşdur.

Biblioqrafik göstəriciyə köməkçi aparat da tərtib olunmuşdur. "Əsərlərinin əlifba göstəricisi", "Ortaq müəlliflərin əlifba göstəricisi", "Haqqında yazan müəlliflərin əlifba göstəricisi" adlanan köməkçi aparatlar vəsaitin axtarış imkanlarını artırır və ondan istifadəni asanlaşdırır.

AMEA-nın müxbir üzvü, memarlıq doktoru, professor Cəfər Qiyasiyə həsr olunmuş biblioqrafik göstərici memarlıq sahəsində mühüm mənbədir və sahə mütəxəssislərinin biblioqrafik informasiya təminatında müstəsna rol oynayır.

Məsələnin təhlili. Azərbaycanıngörkəmli memarlarına həsr olunmuş şəxsi biblioqrafik göstəricilərdən biri də AMEA Mərkəzi Elmi Kitabxanasında hazırlanmış və "Elm" nəşriyyatında çapdan çıxmışakademik Mikayıl Hüseynova həsr olunmuşdur (12, s.1 ). AMEA Mərkəzi Elmi Kitabxanasında və Memarlıq və İncəsənət İnstitutunda hazırlanmış, N.A.Bağırbəyova tərəfindən tərtib olunmuş, Dövlətmükafatı laureatı, xalq memarı, AMEA-nın həqiqi üzvü, memarlıq doktoru, 30 ildən artıq AMEA Memarlıq və İncəsənət İnstitutuna rəhbərlik etmiş, professor Mikayıl Ələsgər oğlu Hüseynovun əsərlərinin biblioqrafik göstəricisi 1926-1978-ci illəri əhatə edir və 1979-cu ildə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasında çap olunmuşdur. Biblioqrafik göstərici görkəmli memarın 50 ildən artıq bir dövr ərzindəki yaradıcılığını əhatə edir.

Biblioqrafik vəsaitdə Azərbaycan və rus dillərində olan materiallar 7 bölmədə - 1. Həyatının, elmi və ictimai fəaliyyətinin əsas tarixləri; 2. Mikayıl Ələsgər oğlu Hüseynovun yaradıcılıq, elmi-pedaqoji və ictimai fəaliyyəti

haqqında qısa oçerk; 3.Rus, Azərbaycan və xarici dillərdə nəşr olunmuş əsərləri; 4. Layihələrinin annotasiyalı siyahısı; 5. Redaktə etdiyi əsərlər; 6. Dissertantlara elmi rəhbərlik; 7. Mikayıl Ələsgər Hüseynovun həyatı və fəaliyyəti haqqında ədəbiyyat bölmələrində qruplaşdırılmışdır.

Göstəricidə materiallar xronoloji qaydada yerləşdirilmişdir. İllər daxilində əvvəl monoqrafiya və kitabları, sonra isə jurnal və qəzet məqalələri əlifba sırası ilə verilmişdir.

"Həyatının, elmi və ictimai fəaliyyətinin əsas tarixləri" adlanan birinci bölmə görkəmli memarın həyat güzgüsüdür. Bölmə vasitəsi ilə biz görkəmli memarın maraqlı həyatı haqqında zəngin informasiya ala bilərik.

Biblioqrafik vəsaitdə "SSRİ xalq memarı, akademik Mikayıl Ələsgər oğlu Hüseynovun yaradıcılığı, elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında qısa oçerk" adlanan ikinci bölməni sənətşünaslıq doktoru, AMEA-nın müxbir üzvü, professor Ə.V.Salamzadə yazmışdır. Oçerk görkəmli memarın yaradıcılıq yolunu, onun çoxşaxəli yaradıcılığını, memarlıq sənətində dəst-xəttini izləməyə imkan verir. Oçerkdən məlum olur ki, M.Hüseynovun yaradıcılığı özünün bütün mərhələlərində elmi fəaliyyətlə sıx əlaqədardır. Onun Azərbaycan memarlıq tarixi sahəsində apardığı tədqiqat işləri Azərbaycan memarlıq təcrübəsinin ümumiləşdirilməsi, respublikada elmi memarlıq fikrinin inkişafı prosesində böyük əhəmiyyətə malikdir. Görkəmli memarın rus və Azərbaycan dillərində çap olunmuş əsərləri geniş xalq kütlələrini Azərbaycan memarlığının şah əsərləri ilə tanış etmək imkanı verir.

"Rus, Azərbaycan və xarici dillərdə nəşr olunmuş əsərləri" adlanan üçüncü bölmədən görkəmli memarın 1935-ci ildən başlayaraq 1978-ci ilə qədər müxtəlif dillərdə nəşr olunmuş əsərləri haqqında biblioqrafik informasiya alırıq. Bölmədən aydın olur ki, M.Hüseynovun ilk elmi əsəri 1935-ci ildə 26 yanvar tarixli "Zarə Vostoka" qəzetində rus dilində dərc olunmuşdur. Ümumilikdə bu bölmədə görkəmli memarın müxtəlif illərdə nəşr olunmuş 94 elmi əsəri haqqında biblioqrafik informasiya toplanmışdır.

"Layihələrinin annotasiyalı siyahısı" adlanan dördüncü bölmədə akademikin işlədiyi 141 layihə haqqında məlumat verilir və hər layihə barədə geniş annotasiya ilə onların məzmunu açılır. Akademikin ilk layihəsi institutda oxuduğu illərdə 1926-cı ildə yaratdığı "Klub" adlı layihədir.Bölmədə layihələrin xronoloji illər üzrə verilməsi görkəmli alimin müxtəlifillərdə yaratdığı layihələr haqqında biblioqrafik informasiya almağa imkan verir.

"Redaktə etdiyi əsərlər" adlanan beşinci bölmədə görkəmli memarın redaktə etdiyi 17 əsər haqqında biblioqrafik informasiya verilir.

"Dissertantlara elmi rəhbərlik" adlanan altıncı bölmədə M.Hüseynovun rəhbərlik etdiyi namizədlik və doktorluq işləri haqqında biblioqrafik informasiya ala bilərik. M.Hüseynov 1978-ci ilə qədər 16 namizədlik və 3 doktorluk işinə rəhbərlik etmişdir.



"Mikayıl Ələsgər oğlu Hüseynovun həyatı və fəaliyyəti haqqında ədəbiyyat" adlanan yeddinci bölmədə görkəmli memar haqqında Azərbaycan və rus dillərində yazılmış 211 mənbə haqqında biblioqrafik informasiya almaq olar. Biblioqrafik təsvirlərin hər birinə annotasiyanın verilməsi mənbələr haqqında daha mükəmməl informasiya almağa imkan verir.

Nəticə

Biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə vəsaitdə 3 köməkçi aparat tərtib olunmuşdur. Onlardan birincisi "Azərbaycan, rus və xarici dillərdəki əsərlərin əlifba göstəricisi" adlı köməkçi aparat müvafiq dillərdə çap olunmuş mənbələr haqqında daha operativ informasiya almağa imkan yaradır.

"Birgə müəlliflərin əlifba göstəricisi" adlanan digər köməkçi aparat görkəmli memarın başqa müəlliflərlə birgə yazdığı əsərlər haqqında informasiya almağa imkan verir və həmin mənbənin tez tapılmasına kömək edir.

"Müəlliflərin əlifba göstəricisi" adlı köməkçi aparat vasitəsi ilə akademik M.Hüseynov haqqında yazan müəlliflər haqqında informasiya almaq olar və bu köməkçi aparat onların əsərlərinin tez tapılmasına xidmət edir.

Biblioqrafik göstəricinin Azərbaycan və rus dillərində tərtib olunması onun oxucu dairəsini genişləndirir. Həyatının böyük bir hissəsini Azərbaycan memarlığının inkişafına həsr etmiş, öz dəst-xətti ilə bu sənətdə tanınan görkəmli memar Mikayıl Hüseynova həsr olunmuş 121 səhifədən ibarət olan biblioqrafik göstərici onun haqqında mükəmməl biblioqrafik informasiya verir və sahə mütəxəssislərinin biblioqrafik informasiya təminatında mühüm rol oynayır.

Müstəqillik dövründə 100-ə yaxın şəxsi biblioqrafik göstərici hazırlamışdır ki, bunlarında içərisində görkəmli memarlardan: "Ş.Fətullayev", "C.Qiyasi", "R.Əfəndiyev", "K.Kərimov", "Ə.Salamzadə", "C.Cəfərov" və b. göstərmək olar. Hər birininAzərbaycan memarlıq irsinin qorunub saxlanılmasında böyük rol vardır.

Müasir dövrdə memarlıq üzrə informasiya resurslarının formalaşması məsələsi gündən-günə daha yüksək aktuallıq kəsb etməkdədir. Bunun da məntiqi nəticəsi kimi, memarlıq biblioqrafiyasının biblioqrafiyaşünaslığın müstəqil bir sahəsi kimi formalaşması prosesi davam etməkdədir.

## ƏDƏBİYYAT

1. Ağazadə R., İbrahimli Y. Azərbaycan memarlığı: inkişaf yollarında. – Bakı, Şərq-Qərb. – 2013. – 384 s.
2. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq. – Bakı, 2001. – 143 s.
3. Bəkirova T.Ş. Memarlıq mühitinin inkişaf təkamülü. – Bakı, 2013.
4. Cəfər Əli oğlu Qiyasi: biblioqrafiya/ tərtib edən: İ.Səfərov; Mərkəzi Elmi Kitabxana. – Bakı: Elm, 2003. - 140 s.

5. Məmmədov F.Q. Orta əsrlər Azərbaycan memarlıq məktəblərinin əlaqələri. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 196 səh.
6. Hüseynov E, Həsənov Ə, Mikayılova M. Tarixi şəhərin memarlıq irsi. – Bakı, 2006. – 152 s.

**Г.Гаджиева**

## ПОЛНОЦЕННЫЕИНФОРМАЦИОННЫЕ РЕСУРСЫПРЕДСТАВЛЕННЫЙ ВЕЛИКИМИ АРХИТЕКТОРАМИ АЗЕРБАЙДЖАНА СО СВОИМИ НАУЧНЫМИ ИССЛЕДОВАНИЯМИ

### РЕЗЮМЕ

В статье проанализированнынаучные исследование, монографии, очерки, библиографические указателиархитекторовкакинформационныересурсы архитектурной сферы. Основнаяцельэтой статьи заключается в томчтобыпоказат ценность этих исследований и датькороткую информациюо них.

**G.Hajiyeva**

## COMPLETE İNFORMATİON RESOURCES PRESENTED BY THE GREAT ARCHİTECTS OF AZERBAİJAN WİTH THEİR SCİENTİFİC RESEARCH

### SUMMARY

Abstract: The article analyzes the scientific research, monographs, essays, bibliographies of architects as the information resources of architectural spheres. The main purpose of this article is to Show the value of this research and give brief information about them.